Ən çox oxunan qəzet

№ 207 (4661), 2017-ci il

Qiyməti 30 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

Qəzet 1996-cı il noyabrın 1-dən çıxır

www.sherg.az

14 noyabr (çərşənbə axşamı)

## Borcu olan şəxs özünü binadan atmaq istəyib

Hadisə yerinə gələn polis əməkdaşları cəhdin qarşısını alıblar



**Bakıda naməlum kişi intihara cəhd edib. Nəsimi rayonu ərazisində, metronun "20 Yanvar" stansiyası yaxınlığında 45-50 yaşlarında kişi beşmərtəbəli binanın damına çıxaraq özünü atmaq istəyib.** Hadisə yerinə gələn polis əməkdaşları cəhdin qarşısını alıblar.

(Səh.9)

## Rüfət Kəngərlini girov götürüblər



Bakıda adam oğurluğu ilə məşğul olan dəstə üzvləri zərərsizləşdirilib

Daxili işlər orqanları əməkdaşlarının yüksək peşəkarlıqla həyata keçirdikləri növbəti uğurlu əməliyyat tədbiri nəticəsində şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan adam oğurluğu cinayəti törətməkdə təqsirli bilinən cinayətkar dəstənin üzvləri zərərsizləşdirilib.

(Səh.9)



## Prezident fərman imzaladı

Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu yaradılır

**Prezident İlham Əliyev Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında fərman imzalayıb.**

APA-nın xəbərinə görə, Fərmanda qeyd edilib ki, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə" təsdiq edilsin.

- "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin strukturu" təsdiq edilsin.

(Səh.2)

## Həmsədrlərlə AŞPA həmməruzəçilərinin görüşü təxirə salınıb

Həmin gün Moskvada Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilə görüş var



ATƏT-in Minsk qrupu həmsədrləri ilə Avropa Şurası Parlament Assambleyası (AŞPA) Monitorinq Komitəsinin Azərbaycan və Ermənistan üzrə həmməruzəçilərinin görüşü təxirə salınıb.

(Səh.3)

# Liderlər arasında söhbət 4 saat çəkdi



## "Moskva-Ankara münasibətləri tam bərpa olunub"

**Moskva və Ankara münasibətlərini tam həcmdə bərpa olunmuş hesab etmək olar.** Bunu Rusiya prezidenti Vladimir Putin Soçidəki iqamətgahında türkiyəli həmkarı Rəcəp Tayyip Ərdoğanla keçirdiyi görüşdə bildirib.

(Səh.2)

Günün içindən ● Günün içindən ● Günün içindən ● Günün içindən



## "Enerjinin qiymətləri bahadır, vətəndaşlar əziyyət çəkir"

Millət vəkilləri hesab edir ki, ciddi islahatlar aparılmalıdır

Ötən gün Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, İnsan hüquqları, Gənclər və idman, Regional məsələlər və Mədəniyyət komitələrinin birgə iclasında gələn ilin büdcə zərfinə daxil olan qanun layihəsi müzakirə edilib.

(Səh.5)

# Zəlzələ İranı sarsıtdı



## Ölənlərin sayı 450-ni keçib, 3 günlük matəm elan edilib

(Səh.3)